# Xəzər Universitəsində 28-ci Məzunluq Mərasimi

## Hamlet İsaxanlının çıxışı

Əziz məzunlar,valideynlər,müəllimlər,tələbələr! Gözəl sözlərin, təbriklərin böyük hissəsini bizim aparıcılar dedilər.

Doğrudan da , bu gün ən xoş gündür.Sanki biz öz gözəl məhsulumuzu veririk.Siz də həyatda ən mühüm anlardan birini yaşayırsınız. Ali məktəbi bitirisiniz.İş həyatına atılırsınız.

Ümumiyyətlə, insan anadan olandan yol gedir və yolun döngələri var,ciddi,mühüm anları var.Onlardan birisi siz 1-ci sinfe gedəndə olur.İlk dəfə əlinizə qələm- dəftər alırsınız və valideynlər,nənələr,babalar sizinlə bərabər məktəbə gedirlər.Bütün məktəb həyatı boyu valideynlər sizinlə birlikdə olur.Hetta 16-17 yaşa çatana qədər uşaq kimi hər gün sizinlə maraqlanırlar.

Sonra ali məktəbə daxil olursunuz.Sanki dünya dəyişilir.Valideynlərin çoxu yaddan çıxarır ki, siz hələ həmin dünənki uşaqlarsınız və artıq sizin təhsilinizlə müəyyən qədər az maraqlanırlar.Deyirlər ki, siz artıq böyümüsünüz, ali məktəbə müstəqil daxil olmusunuz.Oxumağa başlayırsınız , müəyyən çətinliklərlə rastlaşırsınız .Oxumaq tərzi dəyişir,həyat tərzi dəyişir, şərait dəyişir,siz artıq yavaş-yavaş ali məktəbə öyrəşirsiniz.Bir də görürsünüz ki, ali məktəbi bitirmək üzrəsiniz.Yeni bir an başlayır.Artıq siz tamam müstəqil olur və özünüzü tam hüquqlu bir vətəndaş kimi hiss edirsiniz.

Artıq gözəl işlərə başlaya bilərsiniz.Həyəcanlı an başlayır.Düzdür, sizin bir qisminiz artıq tələbə ola – ola işləməyə başlayır.Bu, əyani oxuyan tələbə üçün , əslində qanuni bir şey deyil.Amma sizin işə daxil olmağınız da çox mühümdür .Biz bunu yaxşı qarşılayırıq.Biz oxuya – oxuya işləyən tələbələrə şərait yaradırıq.Xüsusi bir cədvəl qururuq ki, onlar həm oxuyub,həm də işləyə bilsinlər.Üstəlik , sizin bir qisminiz də oxuduğunuz ali məktəbdə iş tapa bilirsiniz.Yəni oxuya-oxuya işləyirsiniz.Amma gücünü yalnız dərsə verib, qurtaranda yaxşı iş axtarmaq niyyətində olanlar da var.Yəqin bu cür tələbələr sizin aranızda çoxdur.

Amma mən ciddi bir məsələni sizin nəzərinizə çatdırmaq istəyirəm ki , əslində, yaxşı ali məktəb yaxşı tələbə yetişdirirsə ,bu tələbənin əsas məqsədi iş axtarma olmamalıdır,iş yaratmaq olamalıdır.Çünki indi dünyada çox şey dəyişdiyi kimi, həyat da dəyişir. Bir var oturub düşünəsən ki , mən harada işləyim,göndərirsən sənədlərini müxtəlif yerlərə, maaşı daha yüksək olan yerlərdə işə düzələsən,sonra getdikcə daha şöhrətli yerlərdə çalışasan.Bu təbiidir.Daha gözəl olan odur ki ,sizin ali məktəbdə aldığınız biliklər, öyrəndiyiniz elmlər,xüsusilə ingilis dilini yaxşı bilməyiniz , müasir informasiya- kommunikasiyanı öyrənməyiniz sizə "Mən ne yarada bilərəm ", - deyə düçünməyə imkan verir ayrı ayrılıqda və ya dəstə olaraq. Bir ideya həyata keçirəsiniz. Bu çox mühümdür.Mən istərdim ki, siz bu istiqamətdə düşünəsiniz.Bu barədə bizim təcrübəmiz var.

Hal –hazırda univərsitəni hələ bitirməyən tələbələrimizdən biri təklif edir ki "Xəzər" in internet radiosunu yaradaq. Həmin tələbəmiz radionun icraçı direktorudur və hal -hazırda radiomuz bütün dünyada dinlənilir.Elə mən bu günlərdə Tailandda idim.Mənimlə səfərdə olan yaxşı universitetlərdən birinin rektoru ilə "Xəzər" in internet radiosunu açıb , musiqiyə qulaq asırdıq. Bu, tələbənin gördüyü işdir.

Başqa bir misal da iki tələbə yanıma gəlib dedilər ki, Azərbaycanda , rayonlarda internet şəbəkəsi qurmaq isteyirik. Bu tələbələri biz Amerikaya oxumağa göndərmişdik ,oxuyub qayıtmışdılaır. Dedilər ki,bizə kömək edin, Rabitə Nazirliyinin icazəsi lazımdır.Mən gördüm ki, onlar həqiqətən də ciddi şəkildə işə başlamaq istəyirlər.Mən Rabitə Nazirliyi ilə iki dəfə görüşdüm, məsələni danışdıq,iki həftə içərisində həmin tələbələr şirkətlərini qurdular,lisenziya aldılar , çalışmağa başladılar.

Yəni sizin də ağlınıza gözəl bir ideya olarsa, kömək istəyəcəyiniz ilk ünvan öz ali məktəbinizdir.Məsləhət, təşkilati dəstək, həm də maliyyə dəstəyi ala bilərsiniz.Xəzər Universitəsi bu işdə kömək edə bilər, dəstək ola bilər.

Mən sizə uğurlar arzulayıram,burada sadəcə aparıcılarımızın bir sözü ilə razılaşmıram.Qeyd etdilər ki, siz həm də kədərlisiniz,çünki yolunuz bura düşməyəcək.Qətiyyən belə deyil.Mən etiraf edirem ki, sizin hər biriniz dəfələrlə bura gələcəksiniz və burdan heç vaxt ayrılmayacaqsınız. O mənada ki, buraya bağlı olacaqsınız. Necə ki , biz də bağlıyıq.Əziz məzunlar , valideynlər , bir daha sizi təbrik edir, sizə uğurlar arzulayıram.